*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* **ELMİ ƏSƏRLƏRİ № 25, 2018**
**УЧЁНЫЕ ЗАПИСКИ***Азербайджанского Государственного Университета Культуры и Искусств* **№ 25, 2018**
**SCIENTIFIC NEWS** *of Azerbaijan State University of Art and Culture* **№ 25, 2018**

**UOT 76**

***Sənan Ağayev***
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyası***
***AZ1029, Bakı, Heydər Əliyev pr.58***
***E-mail:*****zohr.sena@gmail.com**

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN KİTAB QRAFİKASINDA DİNİ VƏ MİFOLOJİ MÖVZULAR

**Xülasə**: Ümumilikdə müstəqillik dövrü qrafika sənətinin inkişafında kitab qrafikası mühüm yer tutmuşdur. Müstəqillik dövründə mifoloji mövzuların əks olunduğu illüstrasiyalar əsasən ədəbiyyatımızın ən rəngli örnəklərindən sayılan nağıllara həsr olunmuşdur. Azərbaycan nağıllarının süjetləri ilə bağlı olan mifik-əfsanəvi personajlar kitab qrafikasının mühüm təsvir obyektlərindən idi. Dini mövzulu illüstrasiyalar isə az hallarda çap olunan dini nəşrlərlə bağlı olaraq yaradılırdı.

**Açar sözlər:** Qrafika sənəti, kitab qrafikası, illüstrasiya, din, mifologiya.

Azərbaycan təsviri sənətində bütün dövrlərdə olduğu kimi müstəqillik dövründə də dini və mifoloji mövzular aktual olmuşdur. Bunu təsviri sənətin başqa növləri kimi qrafika sənəti üçün də demək olar. Müstəqillik dövründə qrafikanın başqa növlərindən fərqli olaraq, məhz kitab qrafikasında dini və mifoloji mövzulara geniş rast gəlinir. Lakin az hallarda müstəqil hazırlanmış dəzgah qrrafikası nümunələrində, teatr plakatlarında və s. qrafika nümunələrində də bu mövzular öz əksini tapmışdır.

Kitab illüstrasiyası sahəsində çalışan dövrün tanınmış rəssamlarından İnna Kostinanın əsərləri özünün zəngin koloriti və canlı, dinamik xarakteri ilə diqqəti cəlb edir. 1992-ci ildə “Yazıçı” nəşriyyatı tərəfindən çap edilmiş “Min bir gecə” kitabının bədii tərtibatı və illüstrasiyalarla təmin edilməsi işi İnna Kostinaya həvalə edilir. Rəssam kitab üçün akvarel texnikasında on iki illüstrasiya işləmişdir. Rəngarən illüstrasiya silsiləsi yaradan rəssam nağıl perosnajlarının həllinə fantosmoqorik obrazlara müraciətlə nail olmuşdur. Çoxplanlı və çoxfiqurlu bu illüstrasiyalar nağılların oxucuya vermək istədiyi ideya və məzmunun daha təmiz çatdırılmasında əvəzsiz rol oynayır. Bu təsvirlərdə Şərq xalqlarının əfsanəvi-mifik baxışlarının təzahürü olan div, cin, simurq quşu kimi personajlarla yanaşı, mələklərin müşayiət etdiyi qadın başlı, qanadlı, əfsanəvi atın təsvirinə də yer verilmişdir. [1, 95; 2]

Müstəqillik dövründə uşaqlar Azərbaycan nağıllarının kütləvi nəşrinə başlanılmışdır. 1993-cü ildə "Şur" nəşriyyatında Qəşəm İsabəylinin "Cin" adlı nağıl-povesti çapdan çıxarılmışdır. Kitabın bədii yüklü, lakin kompozisiya cəhətdən sadə olan illüstrasiyalarını gənc rəssam Pərvanə Süleymanova işləmişdir. Tuş, pero və akvarel texnikası ilə işlənmiş illüstrasiyalar azyaşlıların əsərin əsas ideya və bədii məzmununu rənglərin dili ilə sadə və rahat qavramasına xidmət edir. Bu baxımdan "Azərbaycan ensiklopediyası" nəşriyyat-poliqrafiya birliyinin 1996-ci ildə çap olunmuş "Məlikməmməd" nəşri də xüsusi yer tutur. İllüstrasiyaları rəssam Elman Haşımov tərəfindən işlənmiş bu nümunənin müxtəlif səhəfələrində oxucuların qarşısına div, əjdaha, zümrüd quşu kimi əfsanəvi nağıl personajları çıxır. Zümrüd quşu Məlikməmməd nağılında önəmli rola malik obrazlardandır. Xeyirin simvolu olab bu quş balalarını bədheybət əjdahadan xilas edən Məlikməmmədi qanadına alıb qaranlıq dünyadan çıxarır, öz tükünü ona verib nə vaxt köməyə ehtiyacı olsa yandırmağı tapşırır. Belə fantastik xüsusiyyətlərə malik qüvvə olan Zümrüd quşu başqa illüstrasiyalarda daha rəngarəng, ehtişamlı və nağılvarı tərzdə təsvir olunsa da, Elman Haşımov "Məlikməmməd" nağılının bu nəşri üçün daha sadə, realistik Zümrüd quşu obrazı yaratmışdır. Bu quş nağılda nə qədər xeyirin simvolu kimi görünsə də illüstrasiyada tükləri qara, caynaqları iri olan obraz heybətli və qorxuludur. [1, 108; 3]

2001-ci ildə "Çaşıoğlu" nəşriyyatında çap olunan "Ovçu Pirim" nağılı rəssam Cəmaləddin Dərbəndi tərəfindən illüstrasiyalaşdırılmışdı. Nağıl üçün altı illüstrasiya işləyən rəssamın əsas personajları ovçu Pirim və padşahla yanaşı, fantastik gücə malik ilanlar idi. İllüstrasiyalardan birində ovçu Pirimin ilanlar padşahının qızı olan ağ ilanı boğmağa çalışan qara ilanı vurmağa çalışdığı səhnə təsvir olunmuşdur. Nağılda ovçu Pirim səhvən ağ ilanı vurur və ilanlar padşahı bütün ilanlara əmr edir ki, Pirimi onun hüzuruna gətirsinlər. Növbəti illüstrasiyada Cəmaləddin Dərbəndi ovçu Pirimin ilanlar padşahının hüzurunda olduğu epizodu təsvir etmişdir. Nağıla görə tüpürcəyində sehrli güc olan, üzüklərinin fantastik kəramətləri olan ilanlar padşahı illüstrasiyada möhtəşəm taxt üzərində, başında tac, boynunda qiymətli daş-qaşlarla şaha qalxmış pozada, ehtişamlı təsvir olunmuşdur. [4]

2000-ci illərdə təkcə Azərbaycan mifoloji dünya görüşü ilə bağlı deyil, dünyanın başqa xalqlarının mifologiyası ilə bağlı kitablar da çap olunur və istdadlı rəssamlarımız tərəfindən illüstrasiyalaşdırılırdı. Bu cəhətdən dünyanın ən qədim mədəniyyətlərindən birini yaratmış olan yunan xalqına məxsus zəngin miflərin bəzilərində bəhs edən iki kitabı xüsusilə qeyd etmək olar. Bu kitablar "Altun kitab" nəşriyyatında 2005-ci ildə çap olunmuş "Heraklın on iki qoçaqlığı" və eyni nəşriyyatda 2007-ci ildə çap olunmuş "Prometey. Arqonavtlar" kitablarıdır. Hər ikisinin illüstrasiyalarla təmin edilməsi eyni rəssama tapşırılan kitabların illüstrasiyalarının müəllifi Zöhrab Cabbarov olmuşdur. Rəssamın hər iki kitab üçün yaratmış olduğu təsvirlərdə qədim yunan heykəltəraşlığı və təsviri sənətinin kanonlarına müraciət hiss olunur. Bu da rəssamın işə başlamadan öncə mövzu ilə bağlı ətraflı araşdırma apardığını və işin öhtəsindən uğurla gəlmək üçün yunan

mifologiyası haqqında dərin biliklərə yiyələndiyini göstərir. "Heraklın on iki qoçaqlığı" kitabının səhifələrini bəzəyən qrafiki təsvirlərdə qəhrəmanın başına gələn əhvalatlarla bağlı süjetlər təsvir edilmişdir. Bu təsvirlərdə biz ara-sıra yeddi başlı əjdahaya, yarı at, yarı insan olan kentavr təsvirinə rast gəlirik. Maraqlı illüstrasiyalardan biri üç başlı, qorxunc it Kerberlə bağlı olan qoçaqlığa işlənmişdir. İki il sonra nəşr olunan "Prometey. Arqonavtlar" kitabı ümumilikdə yunan mifologiyası ilə bağlı olan bir çox əfsanəni özündə birləşdirdiyi üçün Zöhrab Cabbarovun bu kitaba işlədiyi təsvirlər mövzu baxımından daha rəngarəngdir. Burada yuxarıda bəhs etdiyimiz kentavr obrazı balaca Yazonu böyüdüb, ona döyüşün və qılınc oynatmağın sirlərini öyrədən qoca kentavr Xiron şəklindən qarşımıza çıxır. Bundan başqa yunan əfsanələrinin başqa mifik personajları – yarı keçi, yarı insan olan satirlərin də təsviri yaradılmışdı. Maraqlı və yaddaqalan illüstrasiyalardan birində isə qədim yunan mifologiyasına görə baş allah sayılan Zevslə bağlı yaradılmışdır. İllüstrasiyada Zevs buludların üstündə, əlində şimşək əsası, məğrur, yenilməz dünya hökmdarı kimi təqdim edilir. [5; 6]

Azərbaycan kitab illüstrasiyasından danışarkən görkəmli rəssam və qrafika ustası, Xalq rəssamı Arif Hüseynovun yaradıcılığından bəhs etmədən keçmək olmaz. Arif Hüseynovun əsərləri uzun illərin sənətkar axtarışlarının nəticəsi hesab olunur və Azərbaycan qrafikasında yeni mərhələnin başlanğıcı sayılır. Rəssamın yaradıcılığında Azərbaycan xalq nağıllarına işlədiyi illüstrasiyalar xüsusi yer tutur. "Qanun" və "Əli və Nino" nəşriyyatlarının birgə işi olan 2017-ci ildə nəşr edilmiş "Azərbaycan xalq nağılları" kitabı Arif Hüseynovun işlədiyi illüstrasiyalar ilə bəzədilmişdir. Rəssamın çoxsaylı rəmz və məcazlardan istifadə etməklə ərsəyə gətirdiyi bu təsvirlər bütün yaş qruplarından olan oxucular üçün maraqlıdır. Bildiyimiz kimi, nağıllarımız əsrlərdən bəri yurdumuzda yaşayan xalqların dini inancları və mifoloji dünya görüşünün öyrənilməsi baxımından qiymətli mənbədir. Bu nağıllar vasitəsilə təqdim edilən Azərbaycan xalqının mənəviyyatını əks etdirən müxtəlif hadisələrin iştirakçıları olan obrazlar xalqın mənəvi təfəkküründən və əfsanəvi-mifik təsəvvürlərindən qaynaqlanır və rəssam bu qəhrəmanları canlandırarkən qeyd etdiyimiz məqamlara əsaslanır. Rəssam kitabda yer alan iyirmi səkkiz nağıl üçün qırx ədəd illüstrasiya yaratmışdır. Fantastik hadisələrin cərəyan etdiyi "Əjdaha", "Naşükür qız", "Nar qız", "Tənbəl Əhməd", "Ovçu Pirim", "Məlikməmmədin nağılı", "Təpəgöz", "Cırtdan", "Sehrli üzük", "Göyçək Fatma" və başqa nağıllara çəkilmiş illüstrasiyalar bədii məcazlardan geniş istifadə edilmişdir. Miniatür sənəti bədii ənənələrinə dərindən bələd olan Arif Hüseynov təsvirləri yaradarkən sənətin bu növünə də əsaslanmışdır. Kitabda Məlikməmməd nağılına həsr olunmuş üç illüstrasiya alır. Bunlardan birincisində Məlikməmmədin divlə döyüşünü əks etdirən illüstrasiyadır. Digər rəssamlardan fərqli olaraq Arif Hüsynov divi mavi rəngdə deyil, qırmızı rəngdə və sadə deyil, daha qorxunc, kompozisiyaya güclə yerləşən böyüklükdə təqdim edir. İkinci illüstrasiyada isə Məlikməmməd Simurq quşunun belində qaranlıq dünyadan işıqlı dünyaya səyahət edərkən təsvir olunub. Zəngin dekorativliyi və əlavə təsvir ünsürləri ilə zənginliyi ilə seçilən əsərdə fonunda qırmızıya boyanmış səma vardır. Nağıla həsr edilmiş

üçüncü təsvir isə sevgililərin xoşbəxt anlarını nümayiş etdirir. Div obrazı ümumi xüsusiyyətləri əsas götürüldükdə bir-birinə bənzəyən biçimdə “Cırtdan”, “Tənbəl Əhməd”, “Nar qız” və başqa nağıllarda da qarşımıza çıxır. İllüstrasiyaları ilə mifoloji baxımdan maraq doğuran daha bir nağıl isə “Təpəgöz” nağılıdır. “Təpəgöz”ə çəkilən illüstrasiyalarda əsası “Kitabi – Dədə Qorqud” dastanından gələn Təpəgöz obrazı canlandırılmışdır. Birinci təsvir Təpəgözün çoban tərəfindən tapılması səhnəsini, ikinci isə Basat ilə Təpəgözün vuruşma səhnəsini əks etdirir. Məlikməmməd ilə divin vuruşma səhnəsi ilə eyni kompozisiya quruluşuna malik olan bu illüstrasiyada da Təpəgöz fiquru çox böyük və heybətli təsvir olunmaqla, sanki kompozisiyanın sərhədlərini aşacaqmış təəssüratı yaradır. [7, 14; 8, 295-301; 33]

2000-ci illərdə Azərbaycanda İslam dini ilə bağlı olan hadisə və rəvayətlərin təsvir olunduğu kitablar da çap olunurdu. Bunlardan biri 2004-cü ildə “Nurlan” nəşriyyatında çap olunan, Vəfa İbrahim qızı tərəfindən illüstrasiyalaşdırılan “Həzrət Əli” kitabıdır. Akvarel texnikası ilə işlənmiş olan altı illüstrasiya – “Peyğəmbərin doğulduğu yer”, “Hz. Məhəmmədin Məkkədən Mədinəyə hicrət edərkən sığındığı Səvr mağarası”, “Ali-Əba”, “Xeybər qalasının fəthi zamanı Hz. Əlinin qalanın qapısını qalxan kimi qaldırması”, “Hz. Məhəmməd Qədirül-Xümm günü Hz. Əlinin imamlığını elan edərkən”, “Hz. Əli Quranı təfsir edərkən” – əsərin süjet xətti ilə bağlı əsas məqamları əks etdirir və əsərin oxucu üçün daha aydın və anlaşıqlı olmasını təmin edir. [1, 114-115]

Beləliklə, ümumilikdə müstəqillik dövrü qrafika sənətinin inkişafında kitab qrafikası mühüm yer tutmuşdur. Müstəqillik dövründə mifoloji mövzuların əks olunduğu illüstrasiyalar əsasən ədəbiyyatımızın ən rəngli örnəklərindən sayılan nağıllara həsr olunmuşdur. Azərbaycan nağıllarının süjetləri ilə bağlı olan mifik-əfsanəvi personajlar kitab qrafikasının mühüm təsvir obyektlərindən idi. Dini mövzulu illüstrasiyalar isə az hallarda çap olunan dini nəşrlərlə bağlı olaraq yaradılırdı.

## Ədəbiyyat:

1. Müstəqillik dövrü Azərbaycan qrafikası. Dissertasiya. 2013.
2. Min bir gecə. Bakı: “Yazıçı”, 1992
3. Məlikməmməd. Bakı: “Azərbaycan ensiklopediyası”, 1996,
4. Ovçu Pirim. Bakı: “Çaşıoğlu”, 2001
5. Heraklın on iki qoçaqlığı. Bakı: “Altun kitab”, 2005
6. Prometey.Arqonavtlar. Bakı: “Altun kitab”, 2007
7. Arif Hüseynov, Orxan Hüseynov. Bakı: “Təhsil”, 2009
8. Z.Əliyev. Arif Hüseynov. Bakı: “Şərq-Qərb”, 2014
9. Azərbaycan xalq nağılları. Bakı: “Əli və Nino”, 2017

**Санан Агаев**

## Религиозные и мифологические темы в книжной графике Азербайджана периода независимости

### Резюме

В период независимости Азербайджана важное место в развитии искусства графики занимала книжная графика. Иллюстрации, отражающие мифологические темы периода независимости, в основном, относились к самым ярким примерам нашей литературы, к примеру сказкам. Мифические персонажи, связанные с сюжетами азербайджанских сказок являются объектами книжной графики.

**Ключевые слова:** искусство графики, книжная графика, иллюстрация, религия, мифология.

**Senan Agayev**

## Religious and mythological themes in the book graphics of Azerbaijan during the period of independence

### Summary

During the period of Azerbaijan's independence, book graphics took an important place in the development of art graphics. The illustrations reflecting the mythological themes of the period of independence, mostly related to the most colorful examples of our literature, to fairy tales. Mythical characters associated with the stories of Azerbaijani fairy tales are significant objects of book graphics. Religious themes were created in rare cases associated with the publication of religious publications.

**Keywords:** art graphics, book graphics, illustration, religion, mythology.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 14.05. 2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 21.05. 2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 18.06.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənzadə**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**